<"xml encoding="UTF-8?>

## MƏHDI (Ə)-IN INTIZARININ XÜSUSIYYƏTLƏRI

Qeyd olundu ki, intizar fitri bir və bütün qövm və dinlərdə belə mövcuddur. Amma adi insanların, hətta cəmiyyətlərin həyatlarında belə, mövcud olan adi intizarlar nə qədər böyük və əhəmiyyətli olsa belə, dünya səviyyəsində və`dəsi verilən intizarla müqayisədə çox kiçik və əhəmiyyətsiz olacaqdır. Çünki onun zühurunun intizarını çəkmək özünəməxsus xüsusiyyətlərə malikdir. O cümlədən Həzrəti Məhd (ə)-ın intizarını çəkmək xilqətin əvvəllərindən başlanan bir intizardır, yə`ni lap qədim zamanlardan belə, ilahi peyğəmbərlər, övliyalar və s övsiyalar onun zühurunun müjdəsini vermiş və yaxın zamanlarda belə, bütün imamlarımız onun dövlətini görmək arzusunu etmişlər.

İmam Sadiq (ə) buyurmuşdur: «Əgər onu görsəydim, bütün ömrümü ona xidmətlə geçirərdim.»[1]

Həzrəti Məhd (ə)-ın zühurunun intizarını çəkmək dünya səviyyəli bir xilaskar və islahatçının gəlişinin, dünya səviyyəli ədalət hökumətinin, bərqərar olmasının, bütün yaxşılıqların geçəkləşməsinin intizarını çəkməkdən ibarətdir. Bəşəriyyət onun yolunu gözləyir ki, Allahın əta etdiyi pak fitrət əsasında arzusunu etdikləri və heç vaxt kamil surətdə həyata keçməyən şeyləri görsünlər. Həzrəti Məhd (ə) da ədalət və mə`nəviyyət, səbir və bərabərlik, yer üzünün abadlığı və təhlükəsizliyi, sülh, bəşər elminin və əqlinin çiçəklənməsi əsrini onlar üçün ərməğan gətirəcəkdir. Cəmiyyətin hər növ istismar və zülmkarlıqdan, hər növ əxlaqi fəsadlardan və eybəçərliklərdən xilas edilməsi onun ədalət hakimiyyətinin nəticələrindən ibarətdir.

Həzrəti Məhd (ə)-ın intizarını çəkmək elə bir məsələdir ki, yalnız onun çiçəklənən

zəminlərinin gerəçəkləşməsi ilə həyata keçəcəkdir. O da elə bir dövrdə olacaqdır ki, insanların hamısı axirəz-zamanda baş verən xilaskarın sorağında olsunlar. O gələcək və bütün silahdaşlarının həmkarlığı və köməyi ilə birlikdə pisliklərin əleyhinə qiyam edəcəkdir, nəinki yalnız mö`cüzə ilə dünyanın işlərini qaydasına salmış olsun.

İmam Məhd (ə)-ın intizarında olmaq onun intizarını çəkənlərdə şövq və o həzrətə kömək etmək ruhiyyəsi icad edəcək, insanlara abır-heysiyyət və yeni həyat bağışlayacaq, onları mə`nəviyyətsizlikdən, puçluqdan və hədəfsizlikdən xilas edəcəkdir.

Qeyd olunanlar bütün tarix miqyasında olan, bütün insanların ruhunda kök atan və başqa heç bir intizarın onun əzəmətinə çatmadığı həmin intizarın xüsusiyyətlərinin bir qismidir. Buna əsasən, yaxşı olar ki, Həzrəti Məhd (ə)-ın intizarının çoxlu müxtəlif tanıyaq, zühurun intizarında olanların vəzifələri və onlara veriləcək misilsiz mükafatlar barəsində söhbət açaq.

---

[1] Yenə orada, 13-cü bab, hədis 46, səh 252